**Sadiqova A.N.**[♦]

**DOI:** **10.25108/2304-1730-1749.iolr.2019.58.240-264**

# Concept of the labour migration, its principles and the problems of its modern position

**Abstract**: It is researched the essence of labour migrants,the principles, that regulate its law position and some problems that exist in this field. Also it is analyzed the restrictions of national legislation concerning the law position of labour migrants in the Republic of Azerbaijan.

There are given some suggestions to the problems about relationship between labourer migrants and employers. State Miqration Service does not allow the foreigner to work, because she/he has denied to pay the state tax to get the working permission  from employer based on the legislation. As the results of the employers' mistakes , labour rights are being violated and the condition for the labour migrant to live in an illegal way in the country is being made. About this it is offerred  to apply disciplinary sanctions to employers based on the norms in the article 578 of the Code of Adminstrative Offences.

In addition, it is commented and compared with the provisions of national legislations of some the UN countries and is given some offers to the female migrants' problems.

**Keywords**: foreigners and stateless persons; labour migrants; labour migration.

Dünya üzrə əhali yerdəyişmələri hər zaman olduğu kimi indiki dövrdə də təbii olan, bu baxımdan forma və məzmun etibarilə zəruri, eləcə də insan  iradəsindən

[♦]**Sadigova Afag Nadir qizi** – Senior Research Fellow of the Department of "Foreigners' rights and migration" of the Institute Law and Human Rights of the Azerbaijan National Academy of Sciences (Azerbaijan). E-mail: afaqsadiqova6@gmail.com

asılı olmayan bir prosesə çevrilmişdir. Dünya tarixinə nəzər salsaq görərik ki, miqrasiya ictimai hadisə kimi hər zaman xüsusi aktuallığa malik olmuşdur. Əhali müxtəlif səbəblərlə - iqtisadi, sosial, siyasi, mədəni, coğrafi və.s amillərin təsiri ilə bir yerdən başqa yerə köç etmiş, məskən salmışdır.

Müasir dövrdə isə miqrasiya təhsil almaq, işləmək və digər məsələlərlə bağlı yaşayış yerini dəyişmək məqsədi ilə ölkə daxilində və hüdudlarından kənara əhalinin yerdəyişmə prosesi kimi qiymətləndirilir. Bugün xarici miqrasiyanın əsas səbəbi kimi bu və ya digər ölkədə mövcud olan hərbi vəziyyətlə bağlı olaraq ölkələr arasındakı iqtisadi fərqlər çıxış edir. Əhali daha əlverişli həyat şəraiti və layiqli iş yerləri tapmaq üçün cəhd göstərir. Bu nöqteyi nəzərdən miqrasiya fenomeninin öyrənilməsi xüsusi əhəmiyyətə malikdir. Əmək miqrasiyasına anlayış verməzdən əvvəl, miqrasiya sözünün mənasına diqqət edək. Miqrasiya (miqratio) latın mənşəli söz olub, köçürmə kimi 2 məna kəsb edir: 1-ci halda - əhalinin ölkə daxilindən köçürülməsi və ya əhalinin yerləşdirilməsi. Buna daxili miqrasiya deyilir. 2-ci halda - bir ölkənin ərazizindən digər ölkənin ərazisinə köçürülməsidir. Bu isə əhalinin xarici miqrasiyası adlanır. Buna emiqrasiya və ya immiqrasiya da deyilir [1, s. 129].

Miqrasiya prosesləri dəyişikliyə uğramaqla yanaşı, öz tarixi mahiyyətini də qoruyub saxlaya bilmişdir. Məsələn, səbəb kimi rahat həyat şəraiti axtarmaq, gündəlik ehtiyaclara olan tələbatları ödəmək, dəyərli insan kimi dünyada yaşamaq istəkləri və zərurəti, eləcə də məcburiyyəti, eyni zamanda müharibələrin, münaqişələrin yaratdığı məcburi ölkədaxili və ölkələrarası miqrasiyalar əvvəlki əsrlərdə olduğu kimi bu gün də öz mövcudluğunu qoruyub saxlamaqdadır. İnsanlar tarixi keçmişdə olduğu kimi, bu gün də oxşar səbəblərdən miqrasiya edirlər.

Bu proseslər sosial-iqtisadi faktorlara və insan hüquqlarının yüksək səviyyədə təmin edilməsinə əsaslanır. Burada artıq sosial amillər, insan hüquqlarının nisbətən yüksək səviyyədə təmin olunması və.s kimi faktorlar mühüm rol oynayır.

Azərbaycan Respublikasında da miqrasiya sahəsində dövlət siyasətinin həyata keçirilməsi, miqrasiya proseslərinin və bu sahədə yaranan münasibətlərin tənzimlənməsi, habelə əcnəbi və vətəndaşlığı olmayan şəxslərin Azərbaycan Respublikasında hüquqi vəziyyəti Azərbaycan Respublikasının Miqrasiya Məcəlləsilə tənzimlənir. Miqrasiya Məcəlləsinin 1-ci maddəsinə əsasən, Azərbaycan Respublikasının miqrasiya qanunvericiliyi Azərbaycan Respublikasının Konstitusiyasından, bu Məcəllədən, Azərbaycan Respublikasının qanunlarından, Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrdən və onlara uyğun olaraq qebul edilmiş digər normativ hüquqi aktlardan ibarətdir.

Miqrasiya qanunvericiliyinin Azərbaycan Respublikası Konstitusiyasına və beynəlxalq hüquq normalarına uyğunluğunun təmin edilməsi məqsədi ilə miqrasiya proseslərinin iştirakçılarına bir sıra anlayışlar verilmişdir. Bu anlayışlardan biridə "əmək miqrasiyası" anlayışıdır.

XX əsrin ikinci yarısı üçün miqrasiyanın bütün formaları ilə yanaşı,müstəqil və özünəməxsus bir təzahürü - əmək miqrasiyası meydana gəlmişdir**.**

İlk öncə "əmək miqrasiyası" anlayışının mahiyyətinin nədən ibarət olduğuna nəzər yetirək. Əmək miqrasiyası, əməkçi miqrant, immiqrasiya, emiqrasiya və.s terminlərə həm hüquq ədəbiyyatında, həmdə beynəlxalq konvesiyalarda müxtəlif cür yanaşmalar mövcuddur. Beynəlxalq Konstitusiyalara görə əmək miqrasiyası dedikdə müəyyən ərazidə daimi yaşayan insanların qanuni əsaslarla əmək fəaliyyəti ilə məşğul olmaq məqsədilə yaşadığı dövlətin ərazisindən digər dövlətin ərazisinə könüllü olaraq gəlməsi başa düşülür [1, s. 128]. Bu proses özünün kütləvi xarakterli olması ilə fərqlənir. Əmək miqrasiyası ümumilikdə beynəlxalq miqrasiya sistemində mühüm yere malikdir. Bu faktı hazırda dünya üzrə miqrantların çox hissəsinin əməkçi miqrantların təşkil etməsi bir daha sübut edir, və hal-hazırda miqrasiya axınlarının əsasını təşkil edir.

Əmək miqrasiyasının əsasında iqtisadi motivlər və səbəblər durur. Statistika göstərir ki, əmək miqrasiyası məvhumu bütün dövlətlərdə iqtisadiyyata və sosial sferalara təsir göstərir ki, bu da əmək miqrasiyasının artması ilə nəticələnmişdir. Belə ki, hesablamalara görə, XX əsrin son onilliyinin əvvəllərində artıq 45mln-dan çox əməkçi-miqrant mövcud idi, onları ailə üzvlərini də nəzərə alsaq, bu rəqəm 80-97 mln-a çatırdı [14, s. 80]. Hazırda isə dünyada 200 milyondan çox insan öz ölkəsindən kənarda yaşayır. Beynəlxalq Əmək Təşkilatının hesablamalarına əsasən, bunun 95 milyondan coxunu əməkçi miqrantlar təşkil edir. Ümumilikdə inkişaf etməkdə olan ölkələri tərk edən miqrantlar üstünlük təşkil edirlər. Belə ki, Almaniya Federativ Respublikası təkcə 1989-cu ildə bir milyondan çox miqrant qəbul edərək (o cümlədən, 720000 nəfəri ADR-dən gələn etnik almanı) kütləvi miqrasiya ölkəsinə çevrilmişdir [15, s. 6].

Əmək miqrasiyasının hüquqi vəziyyətini tənzim eden prinsiplər, ilk növbədə insan hüquqlarının beynəlxalq hüquqi medafiəsinin prinsipləri və əcnəbilərin hüquqi vəziyyini tənzim edən prinsiplər kontekstində təhlil edilməlidir. Əmək miqrasiyası sahəsində, o cümlədən bu sahədə qəbul edilmiş universal, regional və ikitərəfli müqavilələri, o cümlədən müvafiq beynəlxalq praktikanı nəzərə alaraq əməkçi miqrantların hüquqi vəziyyətini tənzim edən bir sıra spesifiq prinsipləri fərqləndirmək olar.

Belə prinsiplərdən biri kimi əmək miqrasiyasının həyata keçirilməsində dövlətlərin əməkdaşlığı prinsipini qeyd etmək olar. Bu prinsipin normativ əsası kimi 1990-cı il BMT Konvensiyasının 6-cı fəsli çıxış edir. Belə ki, bu fəsildə nəzərdə tutulan 64-cü maddəyə əsasən iştirakçı dövlətlər əməkçilərin və onların ailə üzvərinin beynəlxalq miqrasiyasına münasibətdə, normal, ədalətli və humanist şəraitin yaradılması məqsədilə əməkdaşlıq edirlər və zəruri hallarda məsləhətləşmələr həyata keçirirlər.

İkinci prinsip BƏT-in əməkçi miqrantlar haqqında 1949-cu il tarixli 97 saylı konvensiyasının 6-cı maddəsinin 2-ci hissəsində qeyd edilən sosial təminat

sahəsində əməkçi miqrantlara milli rejimin tətbiq olunması prinsipidi. Əməkçi miqrantlara sosial təminat sahəsində milli rejimin təmin olunmasının əsasında sosial təminat məsələlərinə münasibətdə öz vətəndaşları üçün müəyyən etdiyi şərtlərdən az əlverişli olmayan şərtlərin verilməsi dayanır. Bildiyimiz kimi Beynəlxalq Əmək Təşkilatı (BƏT) əmək münasibətlərinə beynəlxalq səviyyədə icrasına nəzarət edən bir təşkilatdır. Azərbaycan Respublikası da 12 may 1992-ci ildən tam hüquqlu üzvi kimi əmək məsələləri sahəsində əməkdaşlıq edir və öz qanunvericiliyimizdə də bu prinsipi həyata keçirir. Belə ki, 6 iyun 2000-ci il tarixli "Beynəlxalq xüsusi hüquq haqqında Azərbaycan Respublikasının Qanunu"nun 15-ci maddəsində qeyd olunub ki, xarici hüquqi şəxslər, əcnəbilər və vətəndaşlığı olmayan şəxslər Azərbaycan Respublikasının hüquqi şəxsləri və vətəndaşları ilə bərabər müvafiq olaraq mülki hüquq və fəaliyyət qabiliyyətinə malikdir [8].

Digər bir prinsip kimi əməkçilərin miqrasiya azdlığı prinsipi qeyd edilə bilər. Beləki, 29 oktyabr 1994-cü il MDB üzv dövlətlərinin vətəndaşlarının sosial hüquq və təminatları Xartiyasının 4-cü maddəsində qeyd edilir ki, iştirakçı dövlətlər əməkçilərin miqrasiya azadlığı prinsipinə riayət etməli və onların sosial əmək sferasında qəbul edən dövlətlərin vətəndaşları ilə hüquq bərabərliyinin maksimal dərəcədə təmin olunması məqsədilə beynəlxalq sənədlər işləyib hazırlamalıdırlar.

Göstərilən prinsiplər əməkçi miqrantların hüquqlarının müdafiəsi və onları qəbul edən dövlətin həmin hüquqları təmin etmək öhdəliyindən irəli gəlir. Belə ki, bu normalar ilk öncə onların nəzərdə tutulduğu sənədlərdə birbaşa olaraq prinsip kimi deyil, əməkçi miqrantların və onların ailə üzvlərinin hüquqlarının müdafiəsi üzrə mühüm müddəalar kimi təsbit olunmuşdur.

Milli qanunvericiliyimizə nəzər salsaq gorərik ki əvvəllər, Azərbaycan Respublikasında əmək miqrasiyası proseslərinin hüquqi, iqtisadi və sosial əsasları, əmək miqrasiyası sahəsində yaranan münasibətləri 28 oktyabr 1999-cu ildə qəbul olunmuş 724-IQ nömrəli "Əmək miqrasiyası" haqqında Azərbaycan Respublikasının Qanunu ilə tənzimlənirdi. Lakin, 2 iyul 2013-cü ildə Azərbaycan

Respublikasının Miqrasiya Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə haqqında Azərbaycan Respublikasının №713-IVQ Qanunu" ilə təsdiq edilmiş Miqrasiya Məcələsi qüvvəyə mindiyi gündən "Əmək Miqrasiyası haqqında" Azərbaycan Respublikasının 1999-cu il 28 oktyabr tarixli 724-IQ nömrəli Qanun ləğv edilmişdir. Hazırda əmək miqrasiyası Azərbaycan Respublikasının Konstitusiyası, Azərbaycan Respublikasının Miqrasiya Məcəlləsi, Azərbaycan Respublikasının Əmək Məcəlləsi, Azərbaycan Respublikasının normativ hüquqi aktları və Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrlə tənzimlənir [2, s.10].

Azərbaycan Respublikası Konstitusiyasının 69-cu maddəsinin I hissəsində göstərilir ki, əcnəbilər və vətəndaşlığı olmayan şəxslər Azərbaycan Respublikasında olarkən, qanunla və ya Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilə ilə başqa hal nəzərdə tutulmayıbsa, Azərbaycan Respublikasının vətəndaşları ilə bərabər bütün hüquqlardan istifadə edə bilər və bütün vəzifələri yerinə yetirməlidirlər [3, s. 22, 23].

Konstitusiyanın bu müddəasına uyğun olaraq əməkçi miqrantlar ölkə vətəndaşları kimi əmək fəaliyyəti ilə məşğul ola bilərlər. Əməkçi miqrantların ölkəmizdə əmək fəaliyyəti ilə məğul olmaları barədə müddəalar Azərbaycan Respublikası Miqrasiya Məcəlləsində də öz əksini tapmışdır. Bu barədə Azərbaycan Respublikasının Miqrasiya Məcəlləsinin "Əməkçi miqrantların hüquqları" adlı 75-ci maddəsində göstərilir ki, Azərbaycan Respublikasının Əmək Məcəlləsində nəzərdə tutulmuş hallar istisna olmaqla, əməkçi miqrantlara əmək şəraiti ilə bağlı Azərbaycan Respublikasının vətəndaşları üçün qanunvericiliklə müəyyən olunmuş eyni şərtlər tətbiq edilir və onların əməyinin ödənilməsi qanunvericiliklə Azərbaycan Respublikasının vətəndaşları üçün müəyyən olunmuş qaydada həyata keçirilir [2, s. 82].

Qeyd etmək lazımdır ki, Milli qanunvericiliyimizdə əməkçi miqrantların əmək hüquqlarının məhdudlaşdırılmasına yol verilmir. Məlum olduğu kimi əməkçi

miqrantların əmək fəaliyyəti ilə bağlı Azərbaycan Respublikasının Miqrasiya Məcəlləsində nəzərdə tutulmayan məsələlər Əmək Məcəlləsi ilə tənzimlənir. Əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin əmək hüququnun tənzimlənməsi ilə əlaqədər Azərbaycan Respublikasının Əmək Məcəlləsinin 13-cü maddəsində qeyd olunmuşdur ki, qanunda nəzərdə tutulmuş hallar istisna olunmaqla əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin bu Məcəllədə və digər normativ hüquqi aktlarda nəzərdə tutulmuş əmək hüquqlarının məhdudlaşdırılması qadağandır [4, s. 52].

Beləki, 18 yaşına çatmış əmək qabiliyyəti olan hər bir əcnəbi və vətəndaşlığı olmayan  şəxs xarici hüquqi şəxslərin filial və nümayəndəlikləri vasitəsi ilə iş icazəsi aldıqdan sonra Azərbaycan Respublikasında işləyə bilər. O şərtlə ki, iş yerinin tələblərinə cavab verən peşə hazırlığına və ixisasa malik Azərbaycan Respublikası vətəndaşlarının iddia etmədiyi iş yerləri mövcud olsun, işəgötürənin işçi qüvvəsinə olan ehtiyacları yerli əmək ehtiyatları hesabına təmin etmək mümkün olmasın. Göründüyü kimi Milli qanunvericiliyimizdə əcnəbilərə və vətəndaşlığı olmayan şəxslərə ölkənin vətəndaşlarına nisbətən artıq hüquqların verilməsi qadağandır. Bu hal Azərbaycan respublikasının Əmək Məcəlləsində də öz əksini tapmışdır. Belə ki, Əmək Məcəlləsinin 13-cü maddəsinin 3-cü hissəsində göstərilir ki, əmək münasibətləri sahəsində Azərbaycan Respublikasının vətəndaşlarına nisbətən əcnəbilərə və vətəndaşlığı olmayan şəxslərə daha üstün hüquqların müəyyən edilməsi yolverilməzdir. Lakin, müşahidələrimizdən belə bir nəticəyə gəlmək olar ki, bu hər zaman belə olmur. Belə ki, ölkəmizin ərazisində fəaliyyət göstərən xarici şirkətlərdə işlərə yalnız əcnəbilər təyin edilirlər. Bu isə, yüksək peşə hazırlığına malik olan Azərbaycan Respublikasının vətəndaşlarının hüquqlarının pozulması ilə nəticələnir.

Həmçinin Əmək Məcəlləsinin 4-cü hissəsində göstərilir ki,  işəgötürənlər Azərbaycan Respublikasının Miqrasiya Məcəlləsinin 64-cü maddəsində nəzərdə tutulmuş hallar istisna olmaqla, işə cəlb etmək istədikləri hər bir əcnəbi və

vətəndaşlığı olmayan şəxs üçün həmin Məcəllə ilə müəyyən edilmiş qayda və şərtlərlə iş icazəsi almalıdırlar [4, s. 52].

Əməkçi miqrantlar iş icazəsini onları işə cəlb edən işə götürənlərin vasitəsi ilə alırlar. İş icazəsi Miqrasiya Məcəlləsi ilə müəyyən olunmuş qaydada Azərbaycan Respublikasının Dövlət Miqrasiya Xidməti tərəfindən verilir. İş icazəsinin verilməsi Azərbaycan Respublikasının Nazirlər Kabinetinin 14 mart 2016-ci il tarixli 124 nömrəli Qərarı ilə təsdiq edilmiş "Əmək miqrasiyası kvotasının müəyyən edilməsi Qaydası" ilə tənzimlənir. Qaydaya əsasən, əmək miqrasiyası kvotası təqvim ili ərzində Azərbaycan Respublikası ərazisində haqqı ödənilən əmək fəaliyyəti ilə məşğul olmaları nəzərdə tutulan əcnəbilərin sayının son həddinə deyilir [11].

Həmin qaydanın 1.4-cü bəndinə və Azərbaycan Respublikasının Miqrasiya Məcəlləsinin 51.6-cı maddəsinə görə, kvota daxili əmək bazarının vəziyyəti, işçi qüvvəsinə tələbat, iş yerinin tələblərinə cavab verən peşə hazırlığına və ixtisasa malik Azərbaycan Respublikası vətəndaşının iddia etmədiyi boş iş yerlərinin mövcudluğu , məşğulluq xidməti orqanlarının işə götürənlərin işçi qüvvəsinə olan ehtiyaclarını yerli əmək ehtiyatlari hesabına təmin etmək imkanı, habelə yüksək ixtisaslı əcnəbi mütəxəssislərin cəlb edilməsi zəruriliyi, nəzərə alınmaqla müəyyən edilir [11].

Göründüyü kimi, qanunvericiliyimizdə əcnəbilərin və ya vətəndaşlığı olmayan şəxslərin ölkədəki hüquqi vəziyyətini tənzimləyən çoxsaylı qanunlar, normativ hüquqi aktlar nəzərdə tutulub. Lakin, bir çox hallarda bir-biri ilə ziddiyyət təşkil edir. Məsələn, Miqrasiya Məcəlləsi əmək miqrasiyası sahəsində mövcud olan bir sıra problemləri aradan qaldırsa da bu sahədə xeyli problemlər mövcud olmaqda davam edir. Belə ki, əməkçi miqrantların iş icazəsi ilə bağlı proseduru mürəkkəb olaraq qalmaqdadır. "Vahid pəncərə" sisteminin mövcud olmasına baxmayaraq, bu prosedur sadələşmir.

Belə ki, Miqrasiya Məcəlləsinin 67.12 -ci maddəsində göstərilmişdir ki, iş icazəsi bu icazəni almaq üçün dövlət rüsumunun ödənilməsini təsdiq edən sənəd təqdim olunduqdan sonra işəgötürənə verilir [2, s. 76].

Həmin maddənin 13 cü hissəsində qeyd olunmuşdur ki, işəgötürən tərəfindən 30 gün müddətində iş icazəsinin alınmasına görə dövlət rüsumu ödənilmədikdə müvafiq icra hakimiyyəti orqanı (Azərbaycan Respublikasının Dövlət Miqrasiya Xidməti) iş icazəsini ləğv edir [2, s. 77].

Göründüyü kimi, işəgötürən əcnəbinin iş icazəsi ilə bağlı dövlət rüsumunu ödəmədikdə Dövlət Miqrasiya Xidməti iş icazəsi verməkdən imtina edir. Bununlada işəgötürənin günahı ucbatından əcnəbinin əmək hüquqları pozulur.

Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinin 578 ci maddəsində əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin işə cəlb edilməsi qaydasının pozulması ilə bağlı bir çox intizam tənbeh tədbirləri mövcuddur [7, s. 342].Təklif edərdik ki, həmin maddəyə yuxarida şərh etdiyimiz məsələ ilə bağlı yəni işəgötürən tərəfindən iş icazəsinin alınmasına görə dövlət rüsumunun ödənilməsində yol verilən illeqal halların qarşısının alinması üçün də işəgötürənlər barəsində intizam tənbehi tətbiq edilməsi məqsədə müvafiq hesab edilsin.

Həm daxili miqrasiyanin yüksək səviyyəsi, həm də son dövrlərdə ölkəyə əsasən qeyri leqal yolla ucuz işçi qüvvəsinin daxil olması da ölkənin məşğulluq problemlərinin həllində mənfi rol oynamaqdadır. Baxmayaraq ki, xarici işçi qüvvəsinin ölkəyə axını bir o qədərdə yüksək deyildir və hələ ki, bu axın əmək bazarı üçün ciddi təhlükə yaratmir. Son illər məşğulluq sahəsində yaranmış problemlərdən biridə əmək bazarında xarici işçi qüvvəsinin mövcudluğu ilə əlaqədardı. Miqrasiya proseslərinin miqyasının geniş vüsət alması ölkə üçün yeni olan bir sıra məsələlərin həllini vacib etmişdir. Bu baxımdan ölkədə dövlət maraqlarının qorunmasını, qeyri qanuni əmək miqrasiyasının qarşısının alınmasını, əməkçi miqrantların sosial müdafiəsi və onların hüquqlarının qorunmasını, əmək bazarının tələblərinə uyğun yerli kadrların hazırlanmasını, bazar iqtisadiyyatı

şəraitində işləmək təcrübəsinin əldə edilməsində xarici əmək miqrasiyasının imkanlarının tam istifadəsini təmin etmək məqsədi ilə müvafiq tədbirlərin görülməsi zərurəti yaranmışdır.

Bütün bunları nəzərə alaraq əmək miqrasiyası zamani yaranan əsas problemlər kimi aşağıdakıları göstərmək olar;

Qeyri-formal əmək sektoru ölkənin əmək bazarının xeyli hissəsini təşkil edir. Bu isə qeyri formal əmək sektorunda əməkçi miqrantların əksəriyyət təşkil etməsinə şərait yaradır.

Əməkçi Miqrantların əksəriyyəti qeyri formal əmək sektorunda cəmləşmişdir. Bu isə onların əməyinin mühafizəsi, layiqli məşğulluğunun təmin olunması, istirahət və iş rejiminin qanunvericiliyə uyğun olmasına mane olur. Əməkçi Miqrantları işəgötürəndən tam asılı vəziyyətə salır. Onların əmək və sosial hüquqlarının pozulmasına gətirib çıxarır.

Rəsmi statusu olmadan və qeyri leqal şəkildə ölkədə olan əməkçi miqrantların ailə üzvlərinin təhsil almaları və onlara tibbi yardım göstərilməsi olduqca mürəkkəbdir. Çünki təhsil almaq və tibbi yardım üçün qeydiyyatda olmaq mütləqdir.

Bundan əlavə əmək miqrasiyası zamanı qadın miqrantların üzləşdiyi problemləridə qeyd etmək lazimdır. Qadınların işə qəbul prosesində ayrı-seçkilik hallarına meruz qalmalarına çox sıx rast gelinir. Bu da, onların əməyə çıxışının məhdudlaşdırılmasına getirib çıxarır. Əmək Məcəlləsində qadınlar üçün iş yerləri və iş rejimi ilə bağlı müəyyən edilən məhdudiyyətlərin qadağanedici normalarla müəyyən edilməsi məqsədəuyğun deyildir və beynəlxalq tələblərlə uzlaşmır. Belə ki, Əmək Məcəlləsinin hazırki müddəalarına əsasən işə qəbuldan ayrı-seçkilik zəminində imtina almış qadınların ayrı-seçkilik qurbanı olmalarını sübut edə biləcək müddəa və mexanizmlər yoxdur. Məhz bu səbəbdən işə qəbul zamanı ayrı-seçkiliklə bağlı olan hər hansı məhkəmə praktikası yoxdur. Qeyd etdiyimiz problemlərlə bağlı təklif etmək istərdik ki, Gender (kişi və qadınların)

bərabərliyinin təminatları haqqında Qanuna, Əmək Məcəlləsinə və Əmək münasibətlərini tənzimləyən digər normativ-hüquqi aktlara qadınların əməyə çıxışının məhdudlaşdırılmasının qarşısının alınmasına yönələn müddəalara yenidən baxılsın, Qanunvericilik aktları beynəlxalq standartlara uyğunlaşdırılsın.

"Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyasında göstərilirki, "Əmək miqrasiyası proseslərinin tənzimlənməsi sisteminin təkmilləşdirilməsi istiqamətində beynəlxalq əməkdaşlıq davam etdiriləcək, ölkə vətəndaşlarının əməkçi miqrantlar qismində xarici ölkələrə göndərilməsi işinin beynəlxalq təcrübəyə uyğun tənzimlənməsi təmin olunacaqdır. Eyni zamanda başqa ölkələrdən gələn qaçqinların sosial təminatlardan yararlanmasını tənzimləyən işlək mexanizm yaradılması, xaricdən işçi qüvvəsinin ölkəyə qanunsuz axınının qarşısının alınması, xarici ölkələrdə çalışan vətəndaşlarımızın sosial müdafiəsinin gücləndirilməsi ilə bağlı müvafiq işlər görüləcəkdir".

Sonda onu qeyd etmək istərdik ki, biz dünya iqtisadiyyatına inteqrasiya edirik. Azərbaycana xaricdən gələnlərin sayının ildən ilə artması və Azərbaycan vətəndaşlarının əmək fəaliyyəti ilə əlaqədar xarici ölkələrə getmələri bunun bariz nümunəsidir. Bu, dünyada gedən normal proseslərdir. Əsas məsələ bundadır ki, bütün bu proseslər qanun çərçivəsində tənzimlənsin və iqtisadi maraqlarımız tam şəkildə təmin olunsun. Ölkədə bu sahədə həyata keçirilən məqsədyönlü tədbirlər Dövlət Miqrasiya Xidmətinin bu sahədəki səmərəli və məqsədyönlü fəaliyyətini təmin edir, iş üsullarını və vasitələrini daha da təkmilləşdirir. Dövlət Miqrasiya Xidməti üzərinə düşən vəzifələri düzgün və vaxtında icra edərək, qeyri-qanuni miqrasiyaya qarşı effektiv tədbirlər həyata keçirmək və respublikanın milli təhlükəsizliyinə töhfə vermək əzmindədir.

## References

1. Agasiyev R.M. Azerbaycan Respublikasinda Acnebilerin ve vetendashligi olmayan shehslerin huquqi statusu [Legal status of foreigners and stateless persons in Azerbaijan Republic]. Baku, 2018, 364 p.

2. Azerbaycan Respublikasinin Miqrasiya Mecellesi [Code of Mirgation of Azerbaijan Republic]. Baku, 2018, 62 p.

3. Azerbaycan Respublikasinin Konstitusiyasi [Constitution of Azerbaijan Republic]. Baku, 2017, 92 p.

4. Azerbaycan Respublikasinin Emek Mecellesi [Code of Labor Laws of Azerbaijan Republic]. [Internet resource]. Available at: http://www.e-qanun.az/code/7

5. Azerbaycan 2020: gelecəye baxish İnkişaf Konsepsiyasi [Azerbaijan 2020: look at future. Concept of Development]. [Internet resource]. Available at: http://www.president.az./files/future az.pdf

6. Azerbaycan Respublikasinin Dovlet rusumu haqqinda 4 dekabr 2011-ci il №22-IIQ Qanunu [Law of Azerbaijan Republic 'On State Fee' of December 4, 2011, no. 22-IIQ]. [Internet resource]. Available at: http://www.e-qanun.az/framework/2860

7. Azerbaycan Respublikasinin İnzibati Xetalar Mecellesi [Code of Administrative Offences of Azerbaijan Republic]. Baku, 2016, 448 p.

8. 6 iyun 2000-ci il tarixli "Beynelxalq xususi huquq haqqinda" Azerbaycan Respublikasinin Qanunu [Law of Azerbaijan Republic 'On International Private Law' of June 6, 2000]. [Internet resource]. Available at: http://www.e-qanun.az/framework/509

9. Beynelxalq Emek Teşkilatinin 18 dekabr 1990-ci il tarixli Konvensiyasi [Convention of International Labour Organization of 18 December 1990]. [Internet resource]. Available at: https://treaties.un.org/doc/Treaties/1990/12/19901218%2008-12%20AM/Ch_IV_13p.pdf

10. Emek ve meshgulluq sahesinde dovlet siyaseti senedi [Document on State policy in the field of labour and employment]. Baku, 2014, 64 p.

11. "Emek Miqrasiyasi kvotasinin mueyyen edilmesi" Qaydasi haqqinda Azerbaycan Respublikasi Nazirler Kabinetinin 14 mart 2016-ci il tarixli 124

nomreli Qerari [Decision of the Cabinet of Ministers of Azerbaijan Republic of 14 March 2016 no. 124 on the order of ‘Determination of Labour Migration quota’]. [Internet resource]. Available at: http://www.e-qanun.az/framework/32546

12. Nasibov E.N. Miqrasiyanin esaslari [Basis of migration]. Baku, 2014, 242 p.

13. Materialy mezhdunarodnoyi konferentsii po problemam peremeschennykh vnutri strany lits [Materials of international conference on problems of displaced in the inside of country persons]. Moscow, 2013, 431 p.

14. Migratsiya naseleniya. Vypusk 2. Trudovaya migratsiya v Rossii [Migration of population. Issue 2. Labour migration in Russia]. Moscow, 2001, 191 p.

15. Trudovaya migratsiya v stranakh SNG i zaschita prav trudyaschikhsya-migrantov [Labour migration in the CIS countries and protection of the rights of workers-migrants]. Doklad na Natsional’nom forume “Nastoyaschee i buduschee narodonaseleniya Rossii” [Report at National forum ‘Current and future of population of Russia’]. Moscow, 2004, 6 p.